**Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2022-ci il üzrə məruzəsində qeyd edilmiş təkliflər:**

- şəhərlərarası telefon danışıqlarının haqqının dövlət büdcəsi hesabına ödənilməsi məqsədilə Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinə müvafiq dəyişikliyin edilməsi;
- Konstitusiya Qanununu ilə təsbit edilmiş səlahiyyətlər çərçivəsində müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslərin Ombudsmana əlçatanlığının təmin edilməsi və hüquqlarının daha etibarlı müdafiəsinin təşkili məqsədilə həmin şəxslər üçün qanunvericiliklə müəyyən edilmiş telefonla danışmaq hüquqları ilə yanaşı, Ombudsmanın Çağrı Mərkəzi ilə əlaqə saxlamaları üçün onlara əlavə telefon danışığı hüququnun qanunvericiliklə təsbit edilməsi;
- penitensiar müəssisələrdə psixoloji yardımla bağlı işin təkmilləşdirilməsi və məhkumlarla işləmək bacarığına malik peşəkar psixoloqlara olan ehtiyacın təmin edilməsi məqsədilə psixologiya ixtisası üzrə mütəxəssis hazırlayan ali təhsil müəssisələrində “penitensiar psixoloq” ixtisası üzrə mütəxəssislərin hazırlanması;
- cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların islah olunması, şəxsiyyətinin inkişafı və azad olunduqdan sonra cəmiyyətə adaptasiyası məqsədilə “Cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların islah edilməsi və sosiallaşması” üzrə məqsədli proqramın qəbul edilməsi;
- ruhi xəstəliklərdən əziyyət çəkən və ya cəza çəkdiyi dövrdə psixi sağlamlıq vəziyyətində ciddi dəyişikliklər baş verən şəxslərin psixiatriya müəssisələrinə yerləşdirilməsi ilə bağlı mexanizmin təkmilləşdirilməsi məqsədlə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 2011-ci il 29 noyabr tarixli, 4-N nömrəli qərarı ilə təsdiq edilmiş “Cəzanın çəkilməsinə mane olan ağır xəstəliklərə düçar olmuş məhkumların tibbi şəhadətləndirilməsi Qaydaları”nın yenidən işlənərək qəbul edilməsi.